# Biologiya dərslərində biliklərin möhkəmləndirilməsində öyrədici mühitin rolu

**Aytən Elçin qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aytenmammadova1122@gmail.com

**Rəyçilər:** b.ü.f.d., dos. T.Q. Abdullayeva,
p.ü.f.d. X.Q. İbrahimova

**Açar sözlər:** təhsil, təlim, bilik, öyrədici mühit, interaktivli
**Ключевые слова:** образование, обучение, знания, среда обучения, интерактивность
**Key words:** education, training, knowledge, learning environment, interactivity

Təhsil dövlətin və cəmiyyətin mədəni, mənəvi sosial-iqtisadi inkişafının əsasıdır. Müasir dövrdə ümumtəhsil məktəblərində təhsil-tərbiyə prosesinin, xüsusilə də biologiyanın tədrisində "öyrədici mühit" anlayışının düzgün formalaşdırılması mühüm pedaqoji problemlərdən hesab olunur.

Biologiya fənnində öyrədici mühitin təşkilinin məqsədi şagirdlərə canlılara dair zəruri bilik və bacarıqlar mənimsətməklə onlarda ekoloji mədəniyyət, estetik zövq, humanist və vətənpərvərlik keyfiyyətləri formalaşdırmaqdan ibarətdir. Bu məqsədin həyata keçirilməsi üçün öyrədici mühit düzgün təşkil olunmalıdır.

Düzgün təşkil olunmuş öyrədici mühitdə təhsil alan şagirdlərdə canlı aləmin yaranması, quruluşu, təsnifatı, funksiyaları, yayılma qanunauyğunluqları, mühafizəsi və inkişafı, onların bir-biri ilə və cansız aləmlə qarşılıqlı əlaqəsi, maddi aləmin vəhdət təşkil etməsi barədə ümumi təsəvvür formalaşdırılır, onlarda özünə, ətraf mühitə qayğıkeş və həssas münasibət yaradılır.

Şagirdlərdə müəyyən anlayışlar yaratmaqla müvafiq bilik və bacarıqlar aşılanır, canlı maddi aləmin tamlığı və vəhdət təşkil etməsi haqqında elmi dünyagörüş və məntiqi təfəkkür formalaşdırılır. Düzgün formalaşdırırlmış sosial-psixoloji, əşyavi və informasiya mühitində keçilən Biologiya fənninin tədrisi sayəsində insanın bioloji və sosial mahiyyətini başa düşən şagird özünün, yaxınlarının sağlamlığının qorunmasına və sağlam həyat tərzinə hazırlanır.

Təlimin qarşıya qoyduğu prinsiplərin və vəzifələrin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən şərtlərdən və amillərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Şagirdi əhatə edən şəraitin onun maraqlarına, dərk etmək tələbatına və problemlərinə nə dərəcədə istiqamətlənmiş olması tədris prosesinə münasibəti ilə sıx bağlıdır. Öyrədici mühit şagirdi əhatə edən şəraitin müxtəlif xassələrini əks etdirir.

Onlar şərti olaraq: əşyavi mühit; informasiya mühiti; sosial-psixoloji mühit olaraq bölünürlər. Bu bölgü şərtidir, çünki ətrafdakı müəyyən obyektlər eyni zamanda ayrı-ayrı mühit növlərinin elementləri ola bilər (Məsələn, dərsliklər, lövhələr, didaktik və əyani vasitələr həm informasiya mühitinin, həm də əşyavi mühitin hissəsi ola bilər).

Öyrədici mühitin təşkilinə başlıca yanaşma bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması; şagirdin bilik əldə etmək, ünsiyyətdə, qarşılıqlı əlaqədə olmaq və əməkdaşlıq imkanlarını genişləndirmək; şəxsiyyətin inkişafı üçün imkanları artırmaqdan ibarətdir. Öyrədici mühitin təşkilini əvvəlcə sinfin maddi mühitindən başlamaq lazımdır. Məsələn, partalar – interaktiv işi qur-

maq üçün partaları çevirmək və ətrafında şagirdləri oturmaq lazım olur. Çalışmaq lazımdır ki, sinifdə çevikliyin yaradılması üçün mümkün qədər çox məkan olsun və lazım gəldikdə partaların qrup işi üçün quraşdırılmasına imkan olsun. Bu məqsədlə, həmçinin partaların səthinin (yazı hissəsinin) maili olmaması da vacibdir. Nəzərdə tutmaq lazımdır ki, şagirdlərin həmişə qrup şəklində oturması mütləq deyil.

Dərsin məqsədlərindən asılı olaraq (məsələn, bütün siniflə interaktiv işi aparmaq üçün) müəllim partaları ənənəvi formada da düzəldə bilər. Daha sonra "əşyavi mühit"i təhlil edək. Əşyavi mühit təlimin bütün maddi-texniki təminatı kompleksini özündə cəmləşdirir:

1) məktəb maddi mühiti: dərsliklər, lövhələr, didaktik oyunlar, əyani vəsaitlər, texniki avadanlıq, laboratoriyalar, məktəb ləvazimatı və s.;

2) təbii mühit: canlı və cansız təbiətin bilavasitə müşahidə oluna bilən əşyaları;

3) yaşayış şəraiti: evin, yaşayış yerinin maddi əhatəsi, maddi mədəniyyət əşyaları, ictimai və mədəni müəssisələr və s.

Ənənəvi məktəb sistemində ən aktual və istifadə olunan təlimin məktəb maddi mühitidir. Təbii mühit tədris prosesinə nisbətən az cəlb olunur: adətən laboratoriya təcrübələri və müşahidələri aparılarkən və ekskursiyalarda. Təbii mühitin hərdən bir deyil, sistematik olaraq istifadə olunması üçün uşaqları əhatə edən təbiətin (bitkilərin, heyvanların, yer quruluşunun və s.) daha dərindən öyrənilməsi ilə əlaqədar olan müxtəlif tapşırıqların daha aktiv qoyulması və ya məktəbdənkənar dərslərin aparılması lazımdır.

Məktəbdənkənar dərslərin müxtəlif ictimai və mədəni müəssisələrdə keçirilməsi də təlim prosesinə yaşayış şəraitinin qoşulması vasitəsi ola bilər. Şagirdlərin müntəzəm olduqları teatr, kino, sirk, sərgi və s. fərqli olaraq adətən yaşayış şəraiti (məsələn, evin maddi əhatəsi) xüsusi öyrənmə vasitəsi kimi çıxış etmir. Halbuki məhz burada uşaq real həyat haqqında külli miqdarda lazımlı və praktiki məlumat alır. Ona görə də uşağı ev yaşayış şəraitindən dərketmə prosesində istifadə olunmasına istiqamətləndirən ev tapşırıqları vermək məqsədə uyğundur.

İnformasiya mühitini təhlil edək - İnformasiya mühitinə qavramaq, təlim prosesində həm məktəbdə, həm də ondan kənarda istifadə etmək üçün əldə olun bütün məlumat mənbələri kompleksi daxildir. Ənənəvi olaraq tez-tez mənbələrin çox məhdud dairəsindən istifadə olunur: müəllim, dərslik, əyani və didaktik vəsaitlər. Uşağı əhatə edən digər informasiya mənbələri təlim prosesinə məqsədyönlü surətdə cəlb olunmur. Bununla belə, televiziya, mətbuat, başqa adamlarla ünsiyyət kimi mühüm informasiya mənbələri şagirdin təhsilinin formalaşmasına öz-özlüyündə əhəmiyyətli təsir göstərir. Bu və ya başqa çoxsaylı informasiya mənbələrinin (bədii, ensiklopedik, sorğu, elmi və elmi-kütləvi ədəbiyyat, bədii nəşrlər, kompyuter və onun informasiya xidmətləri, müsahibə, müşahidə və eksperimentlər, televiziya, kino, teatrlar, muzeylər, sərgilər, ekskursiyalar, səyahətlər və s.) təlim prosesində nəzərə alınmaması bir tərəfdən tədris prosesini zəiflədir, digər tərəfdən isə onların şagirdin biliklərinə öz-özlüyündə heç də həmişə müsbət olmayan təsiri üçün şərait yaradır. İnformasiyanı dərk etməyə kömək edən psixoloji amilləri də unutmaq olmaz.

Nəzərə almaq lazımdır ki, əgər şagirdə oynamaq, təcrübədən keçirmək, əl vurmaq, eşitmək, görmək, hiss etmək imkanı yaradılırsa o hər bir məlumat səmərəli şəkildə mənimsəyə bilər. Bu səbəblə Sosial-psixoloji mühit də xüsusi əhəmiyyətə malikdir - Sosial-psixoloji mühitə şagirdin həm digər insanlarla (təlim prosesinin bilavasitə şagirdlərilə), həm də öz daxili aləmi ilə təlimə həvəsinin formalaşmasına təsir edən qarşılıqlı əlaqələrinin bütün növləri aiddir: "şagird-şagird"; "müəllim-şagird"; "müəllim-şagird-valideyn"; "müdiriyyət-şagird"; "müdiriyyət-şagird-valideyn"; "ailə-şagird"; "dostlar-şagird". Sosial-psixoloji mühitin yara-

dılması elə bir yanaşmaya əsaslanmalıdır ki, bu zaman pedaqoji prosesə xas olan vadaretmə elementi şagirdin maraqları və şəxsiyyətinin xüsusiyyətlərinin nəzərə alınması ilə tarazlaşdırılsın.

Rus tədqiqatçısı K.D. Uşinski yazmışdır ki, "Əgər pedaqogika insanı hərtərəfli tərbiyə etmək istəyirsə, onda hər şeydən əvvəl onu hərtərəfli öyrənməlidir". O, müəllimlərə məsləhət görmüşdür ki, şagirdlərinizi, onların ətraf mühitini, fiziki və daxili təbiətini nə qədər mümkündürsə çox öyrənsinlər.

Hər bir fəal, işgüzar Azərbaycan müəllimi şagirdlərin sosial şəraitini, ictimai mühitini, milli mentalitetini, adət-ənənələrimizi, fənnin, mövzunun fundamentallığını və ya praktikliyini, fənlərarası əlaqəni, hətta bilgilərin inteqrasiyasını, yaş və həyat təcrübəsi səviyyəsini və pedaqoji-metodik, psixoloji-iradi xüsusiyyətləri nəzərə almalı, prosesin təşkilinə yaradıcı yanaşmalıdır. Təlim mühiti həmçinin müasir mədəniyyətin inkişaf səviyyəsinə uyğun olmalıdır.

Həm təlimdə istifadə edilən vasitələrlə rəftarda, həm də əməkdaşlıqda–insanlararası münasibətlərdə mədəniyyətin nümayişi təzahür etsin. Müasir təlim azad, sərbəst, yaradıcı düşüncəni təzahür etsin, müstəqilliyi inkişaf etdirdiyi kimi insanın mədəniyyət səviyyəsinidə yüksəltməlidir.

Ümumi olaraq bütün bunlardan aydın olur ki, təlim prosesində bizə çox sadə görünən bir hadisə, əşya və s. əslində çox vacib funksiyaya malikdir. Bu prosesdə hər şey tam olduğu zaman şagirdin öyrənməsi və qavraması daha asanlaşır, dərsə olan marağı daha da artır. Məhz buna görə də öyrədici mühit şagirddə formalaşdıralan biliklərin daha yaddaqalan olmasında, möhkəmləndirilməsində xüsusi rol oynayır. Düzgün və dəqiq qurulmuş dərs mühitində təhsil alan şagirdlər gələcəyin yüksək potensiallı kadrı olaraq yetişdirilir.

Millətin, dövlətin gələcəyi məhz tam pedaqoji proses keçmiş, insani bacarıqları və dəqiq elmi bilikləri düzgün formalaşdırılmış, yüksək ixtisaslaşmış kadrlardan asılıdır. Hal-hazırda müasir təhsil sistemimiz dünya təhsil standartlarına uyğunlaşdırır. Çünki uğurlu bir gələcək ilk öncə düzgün qurulmuş təlim və tərbiyə prosesindən asılıdır. Buda özlüyündə təhsil sistemində öz əksini tapır.

**Məqalənin aktuallığı.** Ümumtəhsil məktəblərində biologiyanın tədrisində "öyrədici mühit" anlayışının düzgün formalaşdırılması ən vacib pedaqoji problemlərdəndir. Bu işin əsas təşkilinin məqsədi şagirdlərə canlılara dair zəruri bilik və bacarıqlar mənimsətməklə oyanaşı, eyni zamanda onlarda ekoloji mədəniyyət, estetik zövq və s. bu kimi keyfiyyətlər formalaşdırmaqdan ibarətdir. Təbii ki, bunun da həyata keçirilməsi üçün öyrədici mühit düzgün təşkil olunmalıdır. Məqalə də məhz bu kimi zəruri məsələyə həsr edildiyindən onu aktual saymaq olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təlim-tərbiyə prosesinə təsir edən şərtlər və amillərin öyrədici mühitdən bir daha asılılığı vurğulanmaqla, bu mühitdə şagirdi şagirdi əhatə edən şəraitin xassələri göstərilir, onların şərti olaraq təsnifatı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, 2015.
2. Haciyeva G. Biologiyanın tədrisi metodikası. Bakı, 2018.
3. Hasimov Ə., Sadıqov F. Pedaqogika (Tərbiyə nəzəriyyəsinə dair mühazirələr). Bakı:

Təbib, 1995.
4. Hüseynov Ə. Orta məktəbdə biologiya tədrisinin təkmilləşdirilməsinin başlıca istiqamətləri və optimal təşkili yolları. Bakı: ADPU, 1997.
5. Hüseynov Ə., Məhərrəmov Ə. Biologiyanın tədrisi metodikası. Bakı: ADPU, 2003.
6. Hüseynov Ə. Biologiyanın tədrisi metodikasının ümumi əsasları. Bakı, 2009.
7. Məlikov R, Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı, 2002.

**А.Э. Мамедова**

## Роль обучающей среды в укреплении знаний на уроках биологии

## Резюме

В статье обобщаются различные мнения о роли учебной среды в закреплении знаний в процессе обучения биологии в общеобразовательных школах, даются разъяснения ее сущности, рассматриваются, анализируются и исследуются теоретические и практические вопросы.

**A.E. Mammadova**

## The role of the teaching environment in strengtheniing knowledge in biology classes

## Summary

The article summarizes various views on the role of a solid learning environment in the process of teaching biology in secondary schools, reviews, analyzes and studies the theoretical and practical issues that clarify its essence.

**Redaksiyaya daxil olub:** 03.02.2021